KÖNÜLDƏN KÖNÜLƏ

BAYRAĞIMIZ

Övladlarımız duymalıdır ki,
Bayraq o qürubun alıdır ki,
Rəngində şəhidlər qanı vardır,
Cəngində ulus dastanı vardır.
Düşmən dilimizdən, əlimizdən,
Ayrılmaz ömür məşəlimizdən!

UNUTMA

Dilini istəyən istər elini,
Eli olmaq dili olmaqdır, oğul!
El alınmaz qala eylər dilini,
Dili almaq eli almaqdır, oğul!

VER

Yoxdur yer üzündə yerə girmişlər üçün yer,
Alçaqlara əl vermə, salam vermə, acıq ver!

KİŞİLƏR DÖZƏR

Kişilər candan ağrısa,
Ağrıdan bezər, ağlamaz.

Durub yaralı-yaralı
Aləmi gəzər, ağlamaz.

Canını yaxan həsrəti
Canını üzər, ağlamaz.

Ağlamaq yasaq onlara,
Kişilər dözər, ağlamaz.

* * *

Zirvə dumansız olmaz,
Körpə gümansız olmaz.
Qüssə zamansız olmaz,
İnsan amansız olmaz...

QƏLBİMİN BAĞLARI

Mənim könlüm çocuq kimi sənə sarılar, ey Vətən,
Məni səndən ayırsalar, bağrım yarılar, ey Vətən.

Ömrüm qürbətə sürülsə, canım darılar, ey Vətən,
Qəlbimi sənə bağlayan bağlar qırılar ey Vətən!

NƏLƏR GÖRMÜŞƏM

Bu dünyaya göz açandan, ey Rəfiq, nələr
görmüşəm,
Söz güllətək adamların bağrını dələr,
görmüşəm.
Canım, gözüm canlıları yıxan qəlpələr
görmüşəm,
Anasız yavrucuqları quzutək mələr görmüşəm,
Atası varkən, atasız qalan körpələr görmüşəm.

İNSANLIĞIN TARİXİYLƏ

Yurddaşlarım qonaqları xoşlayır,
İnsanlığa yasaqları daşlayır.
Mənim böyük ulusumun keşmişi
İnsanlığın tarixiylə başlayır...

YORULMAZ

Şairlər yazmaqdan darılmaz, qızım,
Çağlayan irmaqlar durulmaz, qızım!
Qılınc tutan qollar yorular, ancaq
Qələm tutan qollar yorulmaz, qızım!

İŞLƏMƏZ

Xəndan, candan işləyənin
Canına qorxu işləməz,
İşləmədən dişləyənin
Meydanda oxu işləməz.

ARXALI

Bir güllə yaz olmaz bu yer üzündə,
Bir elə dağ çəkər bir yasaq, oğlum.
Mərdimazar oğlu gözə dəyməsə,
Neyləyər meyvəli bağ hasar, oğlum?!

Aslan qəhərlənər, əlbət, düşəndə...
Tülkü bəyə dönər, xəlvət düşəndə,
Nadanın əlinə fürsət düşəndə,
Hey vurar, hey kəsər, hey asar, oğlum!

Düşmənin bal sözü dosta çor gəlir,
Qurbətin günəşi gözə tor gəlir,
Namərdlər görmüşəm mərdə zor gəlir,
Arxalı qoduqlar qurd basar, oğlum!

SEV ŞAİRLƏRİ

Ulu şairlərlə ülfət eylə, sev!
Oğul, atan kimi sev şairləri!
Cılız şairlərə nifrət eylə! Sev –
Nəhəng şairləri, dev şairləri!

ANAMIN SÜDÜDÜR

Sevgili dilimdir mənim sevgilim,
Dilimdə anamın südüdür dilim.

ÇOCUQLARIMA

Böyüyün, çocuqlarım, açılın çiçək kimi,
Gülün mənim ömrümə gözəl gələcək kimi.

İki fidanımsınız siz bu gün, çocuqlarım,
Ucalın, çocuqlarım, böyüyün, çocuqlarım!

Böyüyün, çocuqlarım, böyüyün, mələklərim,
Böyüyün ki, sizinlə böyüsün diləklərim.

Yurd böyük ata olsun könlünüzün gözündə,
Sizin böyük anamız ulusdur yer üzündə.

Böyüyün, önünüzdə işıqlansın bu aləm,
Mən sizi ulus üçün, yurd üçün böyüdürəm!

ŞƏHİD ƏSGƏR

Döyüş meydanında arxası üstə
Yıxılıb gözləri açıq bir igid.
Uğrayıb bir sürü qanlı faşistə
Köksündən vurulub o məğrur şəhid.

Baxır səmalara səmavi gözlər,
Səmalar gözünü onlara dikmiş.

Mavi şimşək kimi o mavi gözlər
Mavi səmaların şəklini çəkmiş.

Şəhidin üzü ağ, alnı açıqdır,
Yanında bənövşə büküb boynunu.
Ulus həsrətiylə rəngi qaçıqdır,
Vətən torpağına açıb qoynunu.

* * *

İnsanlar ağacdan nələr düzəldir,
Ağac dor ağacı olur, gözəldir!
Ağac dar ağacı olan zamanda,
Onun gözəlliyi itər dumanda.

* * *

Təbiət bu qədər gözəl olmasa,
İnsanlıq ömürlük tutular yasa,
Könlünü bu dünya oxşaya bilməz,
İnsan gözəlliksiz yaşaya bilməz!

UZAQLAR

O uzaqlardakı dağlar nə gözəl!
O gözəllik dolu bağlar nə gözəl!
Sular ilqım kimi çağlar nə gözəl!
Nə gözəldir o uzaqlar, nə gözəl!

Nə olur gizli uzaqlarda yozaq,
O gözəllikləri duyduqca yazaq,
Ruhları oxşar uzaqlar, ancaq
Vay o gündən ki vətən olsun uzaq.

Afina, 1984

GÖZƏLLİYİ DUYAN GÖZƏL

Mənim gözəl çocuqlarım,
Sevimli yavrucuqlarım.

Bilin, gözəl düşüncələr
Açar könüldə qönçələr.

Qapılmayın dəcəlliyə,
Könül verin gözəlliyə.

Bu yer gözəl, bu göy gözəl,
Quzey gözəl, güney gözəl.

Gözəl kitabla əylənin,
Gözəl şeirlər öyrənin.

Aşıb-daşınca duyğular
Oyansın incə qayğılar.

Gözəlliyə uyan gözəl,
Gözəlliyi duyan gözəl.

OLMAQ

Mənim fəğanımı dinləyər könül,
Dərdimdən yer ağlar, asiman ağlar.
Gecəli gündüzlü inləyər könül,
Sanki dağ başında bir duman ağlar.

Yetimtək ağlaram mən sənin için,
Hər gün ah çəkərəm, ah, için-için,
Neçin duymayırsan, daşlanıb için,
İçimdə yanıqlı bir kaman ağlar.

Necə amansızmış bu dünya, aman,
Bir yanda günəş var, bir yanda duman,
Kimi sənin kimi gülər hər zaman,
Kimi mənim kimi hər zaman ağlar...

BİR PARÇA ŞEİR

Quşlar ki qonar, nəğmə deyər dilsiz ağac da,
Bülbüllər uçan, güllər açan bağça şeirdir.
İlham oyadar, titrəsə bir parça yamac da,
Bir parça yamac şairə bir parça şeirdir.

NEYLƏRƏM MƏN

Qalın-qalın meşələrdə
Nə çeşidli heyvanlar var,
Çaqqallar var, qabanlar var,
Marallar var, ceyranlar var.

Maralları, ceyranları
Dayanıb seyr eylərəm mən,
Çaqqalları, qabanları
Bu dünyada neylərəm mən?!

Yaxın, uzaq ölkələrdə
Nə çeşidli insanlar var,
Yaxşılar var, yamanlar var,
Mələklər var, şeytanlar var.

Mələk kimi insanları
Könlümdə şer eylərəm mən,
Şeytanları, yamanları
Bu dünyada neylərəm mən?!

DURSA

Vurulmayın bir ürək
Vursa da, kimə gərək?!
Qurulmayan bir saat
Boş-boşuna dursa, at...

BİR QƏM ÜÇÜN

Bir qəm üçün qəm eyləmə,
Uğrayarsan iki qəmə.
Bir qəmi unutmaq üçün
Bax aləm dolu aləmə!

QONŞULAR

Aralıq dənizinin çeşidli sahilində
Konuşurlar dünyanın yetmiş iki dilində...

AMANSIZ OVÇU

Atdı bir güllə amansız ovçu,
Bir maral yavrusunu vurdu qoçu.
Beynimə sanki mənim qan sızdı,
Gördüm alçaq nə qədər qansızdı...

DUYMASA

Yurdunda ulus eşqinə insanlaşar insan,
Yurdu, ulusu duymasa, heyvanlaşar insan.

DOLAQLAR

Budağa kök deyən calaqlar var,
Kökə bağlanmayan yalaqlar var.

Bu gülüstanda saf bulaqlar var,
Orda qanqallaşan alaqlar var.

Alağı gül bilən ulaqlar var,
Bülbülü duymayan qulaqlar var.

Ürəyi, varlığı dalaqlar var,
Bizi çaşbaş qoyan dolaqlar var.

VİCDANSIZ OLAN

Hər bir ulusun mərdi də, namərdi də vardır,
Hər ölkədə nadan da var, alim də var, oğlum!

Hər bir ulusun nəşəsi də, dərdi də vardır,
Vicdansız olan bir ulusa xor baxar, oğlum!

YARANIR

Yazda coşan dağ selləri
Qışın qarından yaranır.

İncə güllər təbiətin
İlk baharından yaranır.

Şeir şair könüllərin
İntizarından yaranır.

Bağçalar əməkçilərin
Əl qabarından yaranır.

İnsanların yamanlığı
Dünya varından yaranır.

Azadlıq ulusdaşların
İxtiyarından yaranır.

Tarix şanlı ərənlərin
Yadigarından yaranır.

Qəhrəmanlar ulusların
Etibarından yaranır.

Yurd xəritəsi ərlərin
Şah damarından yaranır.

Bayraq ölməz oğulların
Dağ vüqarından yaranır!

1984

UNUDULMAZ

Dünyada bir fransız yox
Ki fransızca bilməsin,
Parisdə bir vicdansız yox
Dilində vəcdə gəlməsin.

Mən bir italyan görmədim
Öz dilinə yasaq olsun,
Madriddə ispan görmədim
Öz kökündən uzaq olsun.

Yunanlar doğma elində
Can deyib, can eşitmədə,
Çocuqlar ana dilində
Orada dil-dil ötmədə.

Mən bir ərəb görmədim ki,
Ərəb dilini bilməsin,
Ərəbistanda dedim ki,
Yadlar, səsinizi kəsin.

Öz dilində oxumayan
Bircə rus göstərin mənə,
Hər kəs öz dilinə həyan.
İndi də söz verin mənə.

Ana dilini bilməyən
Azmı yekəbaşımız var?!
Xəcalətindən ölməyən
Neçə-neçə naşımız var!..

1986

VARDIR

Sülhün yer üzündə ulu sirdaşları vardır,
Hərbdaşlara meydan oxuyan marşları vardır!

Hərb başçıları çox da ki çox baş aparırlar,
Sülh arzulayan başçıların başları vardır.

Dünyada silahlar çoxalır günbəgün, ancaq
İnsanlığın ərdəmli silahdaşları vardır.

Bir bayrağın altında yığışmış gözəl ellər,
Ardında duran sevgili qardaşları vardır.

Yurd eşqinə çağlar bu uluslar gecə-gündüz,
Can verməyə hazır neçə yurddaşları vardır.

Yoldan çıxa bilməz bu yola yolçu olanlar,
Yoldaşların aslan kimi yoldaşları vardır.

MƏNLİYİ GÜNƏŞLƏ DOLU

Mənə sual verdi köhnə bir müdir,
Füzuli şiədir, yoxsa sünnüdür?

Dedim: xeyri nədir boş söhbətlərin,
Çürük ehkamların, təriqətlərin?!

Hər dindən ucadır ulu Füzuli,
Mənliyi günəşlə dolu Füzuli!

1985

ULU BABALARIMIZ

Bizə yurd miras qoyub,
Ulus qoyub, saz qoyub,
Kür qoyub, Araz qoyub.

Aşıb-daşıb sevinclə,
Könülləri güvənclə
Dolu babalarımız.

Ərənləri duyubdur,
Dilə candan uyubdur,
Göz kimi qoruyubdur –

Uzun illərdən bəri
Şərəflə keçdikləri
Yolu babalarımız.

Məsləki pul olmayıb,
Özgəyə çul olmayıb,
Kimsəyə qul olmayıb.

Öz əqidələrinin,
Kişi müjdələrinin
Qulu babalarımız.

Hər birisi ər oğlu,
Dədə Qorqud, Koroğlu,
Hər gün onlara doğru –

Can atan canımızdır,
Azərbaycanımızdır
Ulu babalarımız.

1985

GÖZƏL BƏRDƏ

Ulu Nizaminin sevdiyi Bərdə,
Uyuyur ulduzlu düşüncələrdə.

Gəzdim bu oylağı mən oymaq-oymaq,
Canlı gözəllikdən olarmı doymaq?!

Keçdim keçidləri, aşdım bəndləri,
Bərdənin Bayandur, Boyat kəndləri! –

Canlı boylarıdır "Dədə Qorqud"un,
Ruhudur tənburun, qopuzun, udun.

Sular dadlı-dadlı çağlar bu yerdə,
Bağçalar bu yerdə, bağlar bu yerdə!

Şairlər seyr etsin bu gülüstanı,
Ömür dastanıdır, ömür dastanı!

Görünməz üzlərdə, gözlərdə pərdə,
Günəş bəldəsidir sevgili Bərdə!

* * *

Oğul o kəsdir ki, ömrü boyunca
Tutduğu əməldən peşman olmasın,
Gidi düşmanına bir gün dost olub,
Dostu bildiyinə düşman olmasın.

* * *

Arzulardır büsatı dünyanın,
Arzular olmasa, büsat da bitər.
Arzulardır həyatı insanın,
Arzular bitdimi, həyat da bitər.

ÖLÜMDƏN ADLAYANLAR

Ucalan heykəllər kimlər üçündür,
Əbədi məşəllər kimlər üçündür?!

Ölənlər üçünmü yapılmış onlar,
Yandırılmış onlar, çapılmış onlar?

Hamımız bilirik yoxdur o dünya,
Ölülər dünyası sürəkli röya!

Gedənlər bir daha gələn deyildir,
Gələnlər neyləyir, bilən deyildir.

Qalanlar üçündür heykəllər, oğlum,
Ucalan əbədi məşəllər, oğlum!

Qalanlar üçündür, qalanlar üçün,
Ulu sevdalara dalanlar üçün!

Bunlardan təsəlli alır gedənlər,
Qalanlar könlündə qalır gedənlər.

Qalanlar yaşayır ölənlər üçün,
Ölümdən adlayan ərənlər üçün!

Roma, 1984

DEMƏRƏM

Yurda, yurddaş demərəm, uymayana,
Ulusun türküsünü duymayana.

MƏNİM AYDANIM VAR, MƏNİM XƏNDANIM VAR!..

Günüm ki nəs gəlir,
Qanım qaralınca,
Canım darılınca,
İçimdən səs gəlir:

Sənin Aydanın var,
Sənin Xəndanın var,
İki gözün olan
İki fidanın var!

Açılır ovqatım,
Ucalır sovqatım,
Deyirəm, könlümə
Nurlu alov qatım:

Mənim Aydanım var,
Mənim Xəndanım var,
İki canım olan
İki imanım var!

Sən ey ömürdaşım,
Ağarsın, qoy başım,
Sevincdən titrəsin
Gözümdə göz yaşım:

Mənim Aydanım var,
Mənim Xəndanım var,
İki gözüm olan
İki ümmanım var

Yaş ötsün, neyləyək,
Neçin qəm eyləyək?!
Hər gün bu türkünü
Birlikdə söyləyək:

Mənim Aydanım var,
Mənim Xəndanım var,
İki canım olan
İki cahanım var!

YAŞAR YER ÜZÜNDƏ

Yaşar yer üzündə minlərlə alçaq,
İgidlər onların ağlına batmır.

İnsanı alçaldan insandır ancaq,
Təbiət heç kəsi alçaq yaratmır.

İnsanda nə çirkin adət var isə
Kimdən aldığını demək çətindir.

İnsanda nə gözəl cəhət var isə
Gözəllik tanrısı təbiətindir.

1985

* * *

Kim deyir insan kimi ömr eyləmək asan deyil,
Kim deyir insanlara insan şərəf, ad, san deyil?!
Ər odur insanlığın uğrunda məşəl qaldıra,
İnsana əl qaldıran insan, oğul, insan deyil!

1984

* * *

Oğul, bu kainat bir okeandır,
Onun ən dəyərli incisi insan!
Günəşli, ulduzlu, aylı cahandır,
Cahanda insanlıq eşqinə yansan,
Cahanın içində sən də cahansan!

1984

* * *

Füzuli bu ulu yurdun ulusu,
Kim ondan konuşmaz könül dolusu?
Onun dünyasını duya bilməyən
Duya bilməyəcək yurdu, ulusu!

1984

* * *

Gərək oğul olan qorusun dili,
Dilə xor baxanın qurusun dili!
Yurdunda yurddaşı insan eyləyən
Ulusun dilidir, ulusun dili!

1984

İNAN, XƏNDAN

İnan insanlara, Xəndan inanmaq başqa
nemətdir.
İnan insanlara, Xəndan, inanmaq bir
məhəbbətdir.
İnamsız arız-arsız ömr edib bədbəxt olur
insan,
İnanmaq yer üzündə ən umulmaz bir səadətdir,
İnan insanlara, Xəndan, inamla qurtulur
insan!
İnan insanlara, Xəndan inanmaq başqa
nemətdir!

1985

YAYLAQDA

İldırım qopur, şimşək çaxırdı,
Göy yamaclara yağış yağırdı.

Çaylara doğru sellər axırdı,
Bu tamaşaya Aydan baxırdı.

1985

GÖRÜNMƏZ

Qartal yaranan yerdə sürünməz,
Şimşək kimi yüksəkdə o parlar.
Bayquş yaranan göydə görünməz,
Qartal onu bir anda qamarlar!

1985

YELKƏN

Yelkənin varlığı rüzgardır, oğul,
Ona rüzgar əbədi yardır, oğul!

1985

OZAN

Durmadan oxuyan, durmadan yazan
İlhama gəlincə olacaq ozan.

1985

YURDUNDA

Adı yox yurduna qovuşmayanın,
Oğul başqa yolda sınanmır, oğlum!

Öz ana dilində konuşmayanın
Atan bir sözünə inanmır, oğlum!

Yoldaş ol çeşidli çağdaşlarınla,
Rusun, belorusun dilində konuş!

Ancaq ömrün boyu yurddaşlarınla
Yurdunda ulusun dilində konuş!

1984

ALQIŞLAYIN

Çocuqlarım, bağışlayın alışmadan sönənləri,
Çocuqlarım, alqışlayın alçaqlığı yenənləri!

Bağışlayın, çocuqlarım, əyri yoldan dönənləri,
Alqışlayın, çocuqlarım, zəfər dolu dünənləri!

Çocuqlarım, bağışlayın, qocalıb deyinənləri,
Alqışlayın, çocuqlarım, müjdələrlə dinənləri!

Alqışlayın, çocuqlarım, ulusla öyünənləri,
Alqışlayın ürəkləri yurd üçün döyünənləri!

1984

DAĞLAR DAĞLARA HƏSRƏT

Ustad İrfan Ünver Nəsrəddinoğluna

Dağların dərdi vardır,
Dağlar dağlara həsrət,
Dağların başı qardır,
Dağlar dağlara həsrət.

Ürkək-ürkək baxarlar,
Şimşək olub çaxarlar,
Özlərini yaxarlar,
Dağlar dağlara həsrət.

İldırım vura bilməz,
Sıldırım qıra bilməz,
Dağlarsız dura bilməz
Dağlar dağlara həsrət.

Gündüzlər dumanlıdır,
Gecələr gümanlıdır.
Ahlıdır, amanlıdır,
Dağlar dağlara həsrət.

Zillətinə uyan yox,
Möhnətinə hayan yox,
Həsrətini duyan yox,
Dağlar dağlara həsrət.

Yanlardır, yörələrdir,
Türlü mənzərələrdir,
Dərələr dərələrdir,
Dağlar dağlara həsrət.

Şəfa verər ellərə,
Çiçəklərə, güllərə,
Könüllər könüllərə,
Dağlar dağlara həsrət.

Varlığında ağrı, dağ,
Nə istəyir Ağrıdağ?!
Ağrıdağın bağrı dağ,
Dağlar dağlara həsrət.

Quzeydən sav alandım,
Güneydə Savalandım,
Qoşqarda havalandım,
Dağlar dağlara həsrət.

Çarə yovuşan deyil,
Hicran sovuşan deyil,
Vəslə qovuşan deyil,
Dağlar dağlara həsrət.

UMACAĞIM

Bu dünyada mənim kimsəm olmadı,
Sanma, oğul, qəmim, qüssəm olmadı.

Yazıq atam köç eylədi cavankən,
Şairliyim, adamlığım yavankən.

Nə bir kiçik kitabımı gördü o,
Nə çağlayan rübabımı gördü o.

Bilməz idim bayram nədir, yas nədir,
Duymaz idim düşmən nədir, dost nədir.

Mən ayrıldım dağ vüqarlı atamdan,
Dostlarına etibarlı atamdan.

Düşmənləri miras qaldı mənimçin,
Alınmalı qisas qaldı mənimçin.

Bu qisasın sevdasına düşüncə,
Gecə-gündüz yaxdı məni düşüncə.

Gecələri uyumadım yataqda,
Gündüzləri qırovlandım otaqda.

Atam getdi, bir ad qaldı mənimçin,
Gözlərimdə murad qaldı mənimçin.

Qayıq kimi dalğalara atıldım,
Tufanlara, boranlara qatıldım.

Dürlü-dürlü dilək̇ləri dilimdə,
Qələmini yaraq etdi əlimdə.

Şimşək çaxdı, alov yaxdı, sönmədim,
Addımladım, inadımdan dönmədim.

Qıymadım ki, ümidləri püç olsun,
Ucaltdığı yapıları uçulsun.

Mən illərlə gözlərimi yummadım,
Bir kimsədən bir təsəlli ummadım.

Üzə çıxdı neçə-neçə kitabı,
Vətəninə, ulusuna xitabı.

Soruşmadım özgələrin fikri nə,
Gəlib baxdım divardıkı şəklinə.

Dedim: sənin təbəssümün bəsimdir,
Guruldayan səsin mənim səsimdir.

Cəfər Xəndan ocağıdır bu ocaq,
Ürəyimin atəşiylə yanacaq.

Qaralmasın bu ocağım, ay oğlum,
Budur ata umacağım, ay oğlum!

1983

* * *

Sənsiz eylərəmmi aləmə rəğbət?
Olub həsrətinlə qəlbim bir qırıq.

Baxışımda qürbət, içimdə qürbət,
Qürbətə sürmüşdü məni ayrılıq.

Yenə bir umudla yurda dönmüşəm,
Dərdliyə qürbətdə nə dərman olur?!

Eşindən ayrılan qurda dönmüşəm,
Eşindən ayrılan qurd yaman olur.

1983

* * *

Hər kəsin bir əbədi sirri olar dünyada,
Könlümün sirrini, ey sevgili, təqsiri demə.
İnsan ancaq öz əliylə yaxılar dünyada,
Kimsəyə sirrini açdınsa, ona sirr demə!

1984

* * *

Neçin ürəyimi yar oyar mənim,
Bu gün bir aydır ki, ondan ayrıyam,

Nələr çəkdiyimi kim duyar, mənim,
Kim gəlib loğmanım olar, sayrıyam.

1984

* * *

Bu insanlı həyatda
Bir insanla aran yox.

Odur ki, yer üzündə
Sənincin nigaran yox.

Ovqatını yoxlayıb,
Hüzuruna varan yox.

Bir dərdə düşmüsən ki,
Dərmanın yox, çaran yox.

Neçin yaşarsan, səni
İtirib-axtaran yox?!

1985

* * *

Bayram olmaz bəşər övladlarına gündə, oğul!
Bax bu dünyada fikirlərlə tutulmuş yığına.
Uğrasan ən qatı bir zülmətə ömründə, oğul,
İçin aydınsa, könüldən dal iç aydınlığına!

1984

* * *

Var olsun ərənlərlə dövrlər devirənlər,
Vicdanlarını millətə doğru çevirənlər.

Yurdunda yaşar daima yurddaşlar içində
Alqışlanaraq, candan, ürəkdən sevilənlər!

1985

* * *

Həyat bahardır, gülüm,
Ölüm qışdır, soyuqdur.
Həyatın sonu ölüm,
Ölümün sonu yoxdur.

1985

* * *

Hər kəs bilir yaxşı insan necə olur;
Həlim olur, həssas olur, incə olur.
Bu gerçəyi bilir qoca, bilir cavan.
Yamanların artır sayı, necə olur?!

1985

OLMALI

Tək çırpıdan qığılcımlar saçılmaz,
Tək olanın könlü heç vaxt açılmaz,
Bülbül olan bayquş kimi puç olmaz,
Hər canlının yan-yörəsi olmalı.

Üzü gülməz buludlanan üzəlrin,
Kimsə yoxsa, xeyri nədir sözlərin?
Qızıl nuru olmalıdır gözlərin,
Könüllərin pəncərəsi olmalı.

Şeytan olan arzulayar şeytanı,
Mələkləri bir baxışdan duy, tanı!
Cavanların cəng eyləyən meydanı,
Qocaların xatirəsi olmalı.

Sonu olmaz yalan dolu mədhlərin,
Səmimilik canı olsun cəhdlərin,
Sevgilərin, sevdaların, əhdlərin,
Peymanların bünövrəsi olmalı.

Ey dost, çıxar gözlərindən gözlüyü,
Bir üzlülər üzə taxmaz üzlüyü,
İnsanların insanlığı, düzlüyü,
Heyvanların şəcərəsi olmalı.

Al günəşdir insanlığın gözəli,
Gəzib dolaş oymaq-oymaq yüz eli,
Hər yurddaşın ürəyində öz eli,
Xəyalında yer kürəsi olmalı.

Hər adamla oturulmaz, durulmaz,
Hər məclisə, hər görüşə varılmaz.
Mənim könlüm dostlarımdan darılmaz,
Arxadaşlıq gözgörəsi olmalı.

Çoban yaşar çobanların içində,
Ozan coşar ozanların içində,
Rəfiq Zəka, insanların içində
Hər insanın öz çevrəsi olmalı.

1985

TANRI TÜRKÜ QORUSUN

SƏRHƏDLƏRİMİZ

Canla, başla qorudu yurdumuzu cədlərimiz,
Ayla, yıldızla ucaldı ulu məbədlərimiz,
Bəncə, şimşək kimi yüksəklərə yol açmaq üçün
Öncə bağlanmalı alçaqlara sərhədlərimiz!..

1989

BİR SANİYƏDƏN SONRA

Tanrım quruyan gözlərimə yaş verəcəkdir,
Yurddaşlarıma bir Ata türkdaş verəcəkdir!..
Yox söyləmə, varlıqda bir insan bilə bilməz
Bir saniyədən sonra nələr baş verəcəkdir!..

1977

SÖNƏN DEYİLDİR

Kim deyir, bir sabah sönər bu dünya,
Günəş sönməyincə sönən deyildir!
Gecəli gündüzlü dönər bu dünya,
Dönsə də, yolundan dönən deyildir.

1981